**Nazirliyin gender məsələləri üzrə məsul şəxsin təyin edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRİNİN ƏMRİ

"Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 289 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə qəbul edilmiş Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 26 sentyabr tarixli 176 saylı Qərarının 1-ci hissəsini və Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş ''Azərbaycan Respublikası Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. Xalidə Məhəmməd qızı Məsimova - *Aparat rəhbərinin müavini* Azərbaycan Respublikası Energetika Nazirliyinin gender məsələləri üzrə məsul şəxsi təyin edilsin.
1. Ümumi şöbə (E.Şirinov) bu əmrin surətini nazirliyin struktur bölmələrinə və Enerji Məsələlərini Tənzimləmə Agentliyinə çatdırılmasını təmin etsin.
2. Əmrin icrasına nəzarət nazir müavini Samir Vəliyevə həvalə edilsin.

**PƏRVİZ ŞAHBAZOV**
**Azərbaycan Respublikasının energetika naziri**

28 iyun 2019-cu il
№ F-61